Azad AZƏRBAYCAN
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

24 aprel 2011-ci il N 056 1927

İCTİMAİ-SİYASİ HƏYAT

Alman faşizmi üzərindəki qələbənin 66 illiyi qarşısında

FƏDAİ

Qanlı döyüşlərdə Dağıstanın və Azərbaycanın mərdliklə müdafiəsi Əziz Əliyev gücünün təzahürü idi

Böyük Vətən Müharibəsində alman faşizminə qarşı qanlı mübarizədə marşal Jukov Moskvanın müdafiəsindəki xidmətləri ilə bağlı Stalin haqqında belə bir fikir söyləyib: "O, mümkün olmayan işləri həyata keçirdi".

Təcrübəli hərbçinin bu sözlərini inkar etmək istəməzdim. Lakin umduğum odur ki, Jukov kimi güclü marşallar qısqanclığını içində boğub düşmənin az qala ikicə addımlığına yetişdiyi, el dilində desək, taleyi tükdən asılı olan Dağıstanın və həmin o Stalinin, eləcə də sovet hakimiyyəti və hərbisinin üzünü ağ eləyən Bakı neftinin mətin müdafiəsində Əziz Əliyevin xidmət və fədakarlığının əzəmətini də haqq-ədalət naminə dillərinə gətirməkdə özlərində güc tapaydılar. Unutmayaydılar ki, Azərbaycan xalqı qələbənin qazanılmasında özünəməxsus əzmkarlıqla çalışmış, dünyanı lərzəyə gətirən faşizmin məhv edilməsində saysız-hesabsız şücaətlər göstərmişdi. Həmin vaxtlar on minlərlə oğullarımız döyüşə getdi. Cavan gəlinlərimiz körpə uşaqlarını, balalarını dəmir və taxta çarpayılarda əlverişsiz şəraitdə yatızdırıb öz cehiz yorğan-döşəklərinin yununu boşaldaraq cəbhə üçün lazımi məhsullar istehsal etməyə göndərdi. Ağbirçək analarımız səhərlərə qədər əsgərlər üçün isti corab, əlcək toxuyub döyüş meydanlarına yolladı. İnsanlarımız aclığa, kasıbçılığa, hər cür dərdlərə dözdü, ilk növbədə cəbhəni düşündü. Paytaxtımız da istirahət bilmədi. Azərbaycanın alim övladı Yusif Məmmədəliyevin elmdə kəşf etdiyi yeni icadları ilə sovetin qırıcı təyyarələri düşmənə aramsız zərbələr endirdi. Bakı yanacaq məhsulları, elmə yeni gətirilən donmayan benzini ilə gecə-gündüz sovet hərbisini təmin etdi. SSRİ-nin tankları, BTR-ləri, bütün ağır texnikası güvəndiyi Bakıdan və Bakı neftindən güc alıb qüdrətləndi.

Bakıya layiq olduğu "Qəhrəman şəhər" adı verilməməsində keçmiş SSRİ rəhbərliyindəki bəzi qüvvələrin əqidəsinə yenə qısqanclıq və paxıllıq kimi cılız amillər hakim kəsilsə də, xalqımızın və respublikamızın 9 May qələbəsindəki misilsiz qəhrəmanlıqlarını bütün dünya dərk etdi. Mikoyan və hakimiyyətin digər mikoyansifətləri Yusif Məmmədəliyevə nəzərdə tutulan Nobel mükafatı, Sovet İttifaqı Qəhrəmanı, yaxud Sosialist Əməyi Qəhrəmanı adı verilməsinə maneçilik törətsələr də, xalqımızın müharibədəki əvəzolunmaz iştirakı tarixin şanlı səhifələrinə yazıldı. Sovet Ordusunun yanacaq, digər neft məhsulları ilə aramsız təminatı, nəfəs dərmədən istehsal edilən sənaye, kənd təsərrüfatı malları ilə təchizatı bir yana, o ağır müharibə illərində Azərbaycan xalqı 300 mindən çox oğul və qızını qurban verdi ki, bu, ərazisi bütövlükdə işğal olunmuş Belarusun itkiləri qədər idi.

Bütün Azərbaycan xalqı kimi Əziz Əliyev də ölümün, itkinin milyonlarla insana gətirdiyi acıları, müsibətləri gözləri ilə görmüşdü. Hələ müharibədən 4-5 il əvvəl canından artıq sevdiyi xalqı buna bənzər başqa fəlakətlə üzləşmişdi. Xalqımızın 50 min nəfərdən artıq övladı güllələndi, 100 min nəfərdən çoxu Sibirə və Qazaxıstana sürgün edildi. Lakin fərq onda idi ki, həmin vaxt millətimizin balaları alman faşizmi deyil, erməni faşizminin əli ilə Kremlin məhz özü tərəfindən güdaza verilmişdi.

O zaman Əziz Məmmədkərim oğlu respublikamızda səhiyyə sahəsinə rəhbərlik etdiyi üçün onun fədakarlığı həkimləri demək olar ki, bu repressiyalardan qoruya bildi. Kim bilir, bəlkə də bu görkəmli fədai Azərbaycanda birinci sima olsaydı, heç xalqımızın başına bu qədər bəlalar da gəlməzdi. Çünki Moskva ilə dil tapmaq hər oğulun işi deyildi. Kremldə məsul vəzifədə olan daşnaksütyunçu Anastas Mikoyan Stalinə müharibənin qızğın vaxtında belə azərbaycanlıları Orta Asiyaya yenidən sürgün etməyin vacibliyini inandıra bilmişdi.

Azərbaycan KP MK-nin birinci katibi Mir Cəfər Bağırov o zamankı Nazirlər Sovetinin sədri Teymur Quliyevi yanına çağırıb demişdi: "Onlar erməni fitvasına əsasən bu xalqı köçürtməklə respublikamızı yox etmək istəyirlər. Bununla bağlı Stalin məni çağırır. Əgər bu planın səhv addım olduğunu ona inandırıb, fikrindən daşındırmasam, elə kabinetində öldürəcəyəm. Özümlə ikinci tapança götürmüşəm. Bunu ona görə sənə deyirəm ki, geri qayıtmasam, əsl həqiqəti biləsən, sonralar nə yolla isə xalqa, gələcək nəsillərə çatdırasan..." (F. Güney. "Qara qan" II hissə, səh. 264).

Xalqı qoruyan qüvvə onun ilahi sərvəti-neft oldu. İndi isə neftin özünü qorumaq lazım idi. Odur ki, həyəcanlı baxışlar Hitlerin və faşist ordusunun dişlərini qıcadığı Dağıstana zillənmişdi.

Dağlılar da çox qurbanlar verdi. Amma bu iki qardaş xalqı və respublikanı - Azərbaycanı və Dağıstanı işğal edə, əzmini qıra, qürurunu sındıra bilmədilər. Faşizm bəlkə də təcrübəsində ən ağır zərbələrindən birinə tuş gəlib, burnu oyula-oyula, başılovlu geri çəkilərək öz vayına oturmağa məcbur oldu. Jukovlar isə belə qələbələri yalnız Stalinin adına yazmaqla kifayətləndilər. Buna əsla təəccüblənmək və təəssüflənmək lazım deyil. Çünki zaman çalxalandıqca onsuz da çox şeylər üzə çıxır...

Azərbaycanın fədakar oğlu Əziz Əliyevin uşaqlıq və yeniyetməlik dövrü doğma İrəvanla bağlı olub.

Əziz Əliyev ilk təhsilini İbadulla bəy Muğanlınskinin pansionatında alır. Pansionatda ona Fars Abbasın oğlu, gələcəyin tanınmış dilçi-alimi Cabbar Məmmədzadə dərs deyir. Burada şagirdlər ərəb, fars, rus dili ilə yanaşı, fransız dilini də öyrənir. Görkəmli tədqiqatçı-alim Əziz Şərif yazır ki, o zaman azərbaycanlı uşaqları gimnaziyaya hazırlaşdırmaq üçün iki pansionat var idi. Bunlardan birini müəllim Cəfər bəy Cəfərov, ikincisini İbadulla bəy Muğanlınski ilə Cabbar bəy Məmmədov saxlayırdı.

Əziz Əliyev pansionatı bitirdikdən sonra İrəvan Gimnaziyasında təhsilini davam etdirir. Sonralar aldığı mükəmməl təhsili onun fitri istedadından rövnəqlənib Əzizi tibb elminin də fədaisi zirvəsinə ucaldır. O, neçə-neçə elmi əsərin, dərsliklərin, yeni kəşflərin müəllifinə çevrilir. Minlərlə insanın sağlamlığının qorunması, düçar olduğu xəstəlikdən qurtulub yenidən həyata qaytarılması yolunda ürəklə, vicdanla çalışır.

Həmin dövrdə sovet hakimiyyəti rəhbərlərindən əksəriyyətinin xəstə siyasəti isə insanlara mənəvi, psixoloji və cismani zərbələr vururdu. Bütün imperiya daxilindəki müsəlman xalqlarına münasibət heç də yaxşı deyildi. Erməni mənsəbpərəstləri xüsusən azərbaycanlılar haqqında mənfi fikir yaymaqla məşğul olub, xalqımızın gəlmə xalq kimi qələmə verilməsində dəridən-qabıqdan çıxırdılar. Azərbaycan ikitərəfli ağrılar yaşamaqda idi. Bir tərəfdən ağır müharibə, ikinci tərəfdən erməni fitnələri dayanmaq, səngimək bilmir, hər sahədə qarşıya maneələr çıxarırdı. Belə bir ağır vaxtda gizli şəkildə azərbaycanlıları və dağıstanlıları köçürtmək kimi çirkin planlar da cızılırdı. Bu planlar Stalin-Beriya-Mikoyan üçlüyü tərəfindən diktə olunurdu. Onların işbirliyi təkcə Azərbaycanda yox, keçmiş İttifaqın hər yerində türkdilli xalqların bəlasına, faciəsinə çevrildi. Şimali Qafqaz xalqlarının köçürülmələri də bu siyasətin, bu hiylələrin düşünülmüş nəticəsi idi. Qaraçayların, balkarların, çeçenlərin və başqa xalqların uzaq Sibir çöllərinə sürgünü, Krım tatarlarının deportasiyası, o cümlədən Sibirdə, Volqaboyunda yaşayan türkdilli xalqların çoxsaylı bəlaları vəhşi bir siyasətin həyata keçirdiyi yırtıcı planlar idi. Belə bir qəliz dövrdən baş çıxarıb, öz xalqının adını doğrultmaq Əziz Əliyev kimi oğulun taleyinə yazılmışdı. O, həm elm xadimi, həm dövlət xadimi, həm siyasi xadim, həm də zamanın tələbinə uyğun bir hərbçi kimi mətinləşməkdə idi.

Azərbaycanın xalq yazıçısı İmran Qasımov xatirələrində yazdığına görə, Sovet İttifaqı mövcud müqavilənaməyə müvafiq olaraq, 1941-ci ildə öz qoşunlarını İrana gətirir. Əziz Əliyev alay polkovniki rütbəsində həmin qoşun hissələrinin siyasi rəhbəri təyin olunur. O illər İran Azərbaycanında demokratik hökumət yaradılır, muxtariyyət tələbləri və bəzi islahatlar irəli sürülür. Təbrizdə xeyli yazıçı çalışır, vacib ədəbiyyat nəşr edilir. Onun daşınması bakılı Ağamirzə Əhmədovun başçılıq etdiyi Təbriz dəmiryolunun öhdəsinə düşür. Bütün fəaliyyətini cəbhə üçün döyüş kinoəsərləri hazırlamağa həsr etmiş kinostudiyanın bazası əsasında Rəsul Rza Bakıda "Azərbaycan" jurnalı nəşr etdirir. Rəngli jurnal buraxmaq üçün yeganə əlac Yeyinti Sənayesi Nazirliyi nəzdində "sırsıra-konfet" kağızını hazırlayan maşın olur. Elə həmin maşın çap dəzgahını əvəz edir. Poliqrafik keyfiyyəti yüksək olmasa da, jurnal müntəzəm çıxır. R.Rza onu tez-tez Təbrizə aparır. Bir dəfə jurnalı Təbrizə İmran müəllim aparmalı olur. Onun Əziz Əliyevlə ilk görüşü də elə o zaman, Əhmədovun yük vaqonunu dəyişib, əsgər çarpayıları qoyduğu "salon-vaqon" da olur. Çarpayıların üstündə oturub söhbət edirlər. Əziz Əliyev jurnalı əlində tutaraq, İmran Qasımovun faşizmə qarşı döyüşlərdə kinematoqrafın rolundan bəhs edən məqaləsinə diqqət yetirir. Sonra da müdrik uzaqgörənliklə həmin nömrəni gələcək günlər üçün bütövlükdə saxlamağını məsləhət görür. İ.Qasımov söz yox ki, bu təklifi qəbul edir. Qərəz, onun Əziz Əliyevlə Təbrizdəki yeganə görüşü - vaqondakı görüş olur.

1942-ci ilin 16 sentyabrında Əziz Əliyev Dağıstana rəhbər təyin olunanda almanların məxfi planına görə 9 gün sonra, yəni sentyabrın 25-də Bakı zəbt olunmalı idi. Amma oluna bildimi? Vətənin Əziz övladı işə başlayan kimi dərhal dağlılara müraciətində onu da bildirirdi ki, bizim işimizin uğurlu olmasını şərtləndirən səbəblərdən biri də sözdə yox, işdə bütün fəaliyyətimizi əsl hərbi qaydada yenidən qurmağımız, işimizin bütün sistemini müharibə və cəbhə qayda-qanunları ilə həyata keçirməyimizdir. İndi bütün istirahət günlərini ləğv edərək, vaxtı nəzərə almadan bütün gücümüzün yetdiyi qədər gərginliklə işləməliyik. Hər yerdə ciddi hərbi intizam yaradılmalı, başsızlıq və nəzarətsizlik ləğv edilməli, özünə və başqalarına qarşı tələbkar olmalı, dəqiq və konkret göstərişlər verilərək onların yerinə yetirilməsi müddəti qəti şəkildə müəyyənləşdirilməli, işin icrasına nəzarət lazımi səviyyəyə qaldırılmalıdır...

Əziz Əliyev xalqa nümunə olaraq bir an istirahət etmir, həm Dağıstanın müdafiəsinə, həm respublikanın dağıdılmış iqtisadiyyatının dirçəldilməsinə, həm də uçqar aullarda belə yaşayan dağlı xalqların milli-mənəvi dəyərlərinin, mədəniyyətinin daha da yüksəldilməsinə ciddi nəzarət edirdi.

İ.Qasımovun xatirələri davam edir: "... İndi isə yatmaq lazımdır, o başdan durmalıyıq, - deyə Əziz Məmmədkərim oğlu ayağa qalxdı, Mahaçqalada qonaq olan böyük qızını çağırıb tapşırdı: - Bizi tezdən oyat, uçmalıyıq!

Ertəsi gün havada bərk çalxalanan, uçuş yolunda tozu dumana qatan balaca sanitar təyyarəsində Kubaçıya gəlib çıxdıq. Yol üstündəki kiçik, şüşəbənd pavilyonun yanında xeyli adam yığışmışdı. Əziz Əliyev onların hər biri ilə ayrı-ayrılıqda salamlaşır, əl tutur, iltifatla hal-əhval soruşub gülümsəyirdi. Çox çəkmədi ki, hərbi maşın bizi Kubaçının özünə çatdırdı. Bura son dərəcə mənzərəli bir aul idi. Evlər elə bil bir-birinin belinə çıxmışdı, uzaqdan pillə-pillə görünürdü.

Biz yerdə, döşəkcələr üstündə oturmuşduq. Əziz Məmmədkərim oğlu təbəssümlə, gülümsər baxışlarla söhbət edirdi; kubaçılıların ölməz sənətinin Dağıstana böyük şöhrət qazandırdığından danışırdı. O, heç nə gizlətməməyə çalışır, açıq deyirdi ki, cavanların çoxu cəbhədən qayıtmır, bəlkə heç qayıtmayacaqlar, lakin xalqın ulu sənəti isə yaşamalıdır.

Kubaçılılar söhbətin axırında Əziz Əliyevdən çox şey xahiş etdilər, müxtəlif tələblər irəli sürdülər. Amma onların arasında elə bir adam olmadı ki, Dağıstanın bu hörmətli rəhbərini başa düşməsin, ona havadar çıxmasın. Hətta qocalardan biri qalxıb qonşu otaqdan bəzək-zinət şeyləri gətirdi. Bu bəzək şeyləri o qədər qənirsiz və elə zərif idi ki, dünya görmüş Əziz Əliyev heyranlığını gizlədə bilmədi:

- Çox gözəldir! Nəvənizi evləndirin ki, bunları qoruyub saxlasın. Yaxşımı? - deyə Əziz Məmmədkərim oğlu qocadan soruşdu. O, ən ciddi söhbət əsnasında da işin xeyrinə zarafatından, gülüşündən qalmırdı.

İ.Qasımovun yazdığına görə, onlar harada olduqlarına əhəmiyyət verməyərək söhbətlərinə davam edirlər. Hətta Kubaçıda təyyarənin lyukları bağlanan anlarda belə onlar öz xatirələri ilə məşğul olurlar. Təyyarəni cəbhədən təzəcə qayıtmış məşhur pilot Nurəddin Əliyev idarə edir. Əziz Məmmədkərim oğlu yenə zarafatsız keçinə bilmir: "Bu fırfıra maşın bizi dağlara çırpıb, qərq etməsə yaxşıdır! Amma sənət xatirinə bir aula da gərək uçaq, orada bir dəliqanlı avar balası peyda olub. Çox maraqlı oğlandır..."

Sağ-salamat həmin aulda yerə endik. Çox çəkmədi həmin avar balasını gördüm, bığ yeri təzəcə tərləyirdi.

Əziz Əliyev dedi:

- Hə, sizin ağsaqqallarla söhbət etmişəm, onlar səni tərifləyirlər.

- Məni atam Həmzə Sadasa da tərifləyir, - deyə gələcək şair ötkəm-ötkəm bildirdi.

- Sizin qocalardan soruşuram ki, bu necə olan işdir, balaca oğlan şeir yazır, axı avar dilinin də lüğət tərkibi kasaddır? Onlar mənə deyirlər ki, balacalığına baxma, o, çox kamallı oğlandır, ağıl dəryasıdır. Şeirləri ürəyə yatır. Nə isə, məktəbi yaxşı bitir, sonra səni Moskvaya göndərərəm, təhsilini orda davam etdirərsən...

Əziz Məmmədkərim oğlunun bir neçə ildən sonra Moskvaya oxumağa göndərdiyi "balaca oğlan", sonralar Dağıstanın məşhur Rəsul Həmzətovuna çevrildi.

Əziz Məmmədkərim oğlu kadrları heç özlərinin xəbəri olmadan ən uçqar yerlərdən belə axtarıb tapır, onlar üçün normal iş şəraiti yaradır, onların sosial, məişət şəraitindən tutmuş fiziki sağlamlıqlarına qədər hər şeylə maraqlanır, qayğısına qalırdı. Vaxtı ilə Əziz Əliyevin kömək edib irəli çəkdiyi neçə-neçə adamlar onu böyük qəlbə malik, qayğıkeş, səmimi bir insan kimi dərin minnətdarlıqla xatırlayırlar.

Əziz Əliyev irsini sevən azərbaycanlı kimi qürurla deyə bilərəm ki, həqiqətən müharibənin odlu-alovlu illərində Dağıstan Respublikasını partiya yox, məhz Əziz Əliyevin zəkası, bacarığı, təcrübəsi idarə etdi, xalqın min bir zillətə düçar olmasının qarşısını aldı. Əziz Əliyev 30-dan çox xalq və etnik qrup yaşayan Dağıstan əhalisinin birliyini, bərabərliyini yaradıb möhkəmləndirdi, milli çəkişmələrin, xəyanətin, fərariliyin, qayğısızlığın, biganəliyin qarşısını aldı. Özü də gecə və gündüz rahatlıq nə olduğunu bilmədən işlədi, xalqı da işlətdi, əsgərlərlə bərabər şaxtalı havalarda səngərlərdə gecələdi. Vətən torpağını düşmənlərdən, insanları aclıqdan, talanlardan qorudu. Məhz bu zəhmətləri ilə Dağıstan xalqlarını Stalin-Beriya-Mikoyan fəlakətindən qurtardı. Onları uzaq Qazaxıstan, Sibir çöllərinə sürgün olunmasından xilas etdi. Əziz Əliyevin uzaqgörən siyasəti, milli məfkurəsi qoymadı ki, Dağıstan xalqlarının taleyi Krım tatarlarının, Meksetі türklərinin, çeçenlərin, inquşların acı taleyinə bənzəsin. Əlbəttə, söz yox ki, onlarda da partiya var idi, amma nə etsinlər ki, Əziz Əliyev kimi sima, güclü şəxsiyyət yox idi. Tanrı onu məhz Azərbaycan xalqına bəxş etmiş, Dağıstanın imdadına yetişdirmişdi. Qocaman cəbhəçi-jurnalist İbrahim Novruzovun "Müharibə ilə üz-üzə" əlyazmasından sətirləri yada salıram: "Şimali Qafqazda havalar getdikcə soyuyurdu. Günəş az-az görünürdü. Tez-tez yağan payız yağışından torpaq qurumağa macal tapmırdı. Yuxarıdan, Xəzərin şimalından əsən soyuq küləklər palçığın ancaq üzünü qaysaqlandırırdı. Qara torpaqlar üzərində insanların, heyvanların, maşınların hərəkəti çətin olmuşdu. Burada palçıq o qədər qalın, o qədər dərin idi ki, uzunboğaz çəkmələri az qala ayaqdan üzüb çıxarırdı. Şimal qrupunun qoşunları belə bir şəraitdə həm hücuma hazırlaşır, həm də düşmənin Stalinqrada gedən ordularına həmlələr edirdi. Canlı qüvvəsini və texnikasını tələfata uğradır, kommunikasiyaları dağıdırdı.

Bizə də burada qəzet çıxarmaq o qədər asan deyildi. İkinci nömrəni buraxmağa imkanımız yox idi. Şrift çatmırdı. Bir səhifəni yığıb çap etməmiş, ikinci səhifəni yığmaq imkanımız yox idi. Kağız və mətbəə avadanlığı üçün Bakıya getmək lazım idi. Buna da cəsarətimiz çatmırdı. Güman edirdik ki, Bakıda bizi düzgün başa düşməzlər. Həmin günlərdə cəbhəyə gəlmiş Səməd Vurğundan və Məmməd Rahimdən Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi Əziz Əliyevin Xasavyurtda olduğunu eşitdim, rayon partiya komitəsinə. Əzizin görüşünə getdim. Əzizi Bakıdan, Azərbaycan KP MK katibi olduğu vaxtdan tanıyırdım. Müharibənin ilk aylarında o, İranda ordu Hərbi Şurasının üzvü olanda yanında qulluq etmişdim. Xasiyyətinə yaxşı bələd idim. Bilirdim ki, mümkün olan köməyi əsirgəməyəcəkdir. Axı o, eyni zamanda Zaqafqaziya cəbhəsinin şimal qrupu Hərbi Şurasının və Dağıstanda duran 58-ci ordunun Hərbi Şurasının üzvü idi. Gözlədiyim kimi də oldu. Axırıncı dəfə biz keçən ilin dekabr günlərində Təbrizdə görüşüb ayrılmışdıq. O, Sovet İttifaqına qayıdan bir qrup yoldaşı yola salmaq üçün vağzala gəlmişdi. Yerdə qalın qar var idi. Bağlarda ağacların çılpaq budaqları şaxtadan sanki gümüşə tutulmuşdu. Şəhəri qucaqlayan şiş dağlar nəhəng kəllə qəsdləri xatırladırdı. Ərik qalası, Göy məscid də qar altında mürgü döyürdü. Əziz ötürməyə gəldiyi adamların bir-bir əlini sıxaraq onlara uğurlu yol arzulayır, vətənə sağ-salamat yetirməyi sifarişləyirdi. Şinelinin yaxalığında vurulmuş əsgəri nişanını qar zərrələri yavaş-yavaş örtürdü.

O vaxtdan təxminən on bir ay keçmişdi. Bu müddətdə nə qədər dəyişmişdi: alnında çoxlu qırışlar yığışmış, yuxusuz gecələrin əlaməti olaraq gözlərinin altı şişmişdi. Onu əhatə edən adamlar arasında həmindən yorğun görünürdü.

Əziz Əliyev həkim idi. Amma heç birimiz ona "doktor" deyə müraciət etmirdik. Onu soyadı və nisbəsi ilə də çağırmırdıq. Hamımız ona ehtiram əlaməti olaraq, sadəcə "Əziz yoldaş" deyirdik. Təvazökarlıq, alicənablıq, açıq ürək onа daxili bir gözəllik verirdi.

Əziz məni görən kimi tanıdı və dərhal yanına dəvət etdi, hal-əhval tutdu. İrandan sonra Krımda olduğumu bilib, bir-bir yoldaşları soruşdu. Mən də redaksiyamızın ehtiyaclarını sadaladım. Məni diqqətlə dinlədi və ***"Bizdə Azərbaycan şriftləri yoxdur"***, - deyə mətbəə avadanlığı verə bilməyəcəyinə təəssüfləndi. Sonra ***"Dağıstanskaya pravda" qəzetinin ehtiyatından bir qədər kağız buraxılmasına sərəncam verdi".***

Əziz Məmmədkərim oğlunun diqqət mərkəzində olan əsas məsələlərdən biri də xalq qisasçıları alayı yaratmaq idi. Onun bilavasitə rəhbərliyi altında Mahaçqala Müdafiə Komitəsi xüsusi təlimat işləyib hazırladı. 1942-ci ilin payızında minlərlə kişi və qadın xalq alayı sıralarına daxil oldu. Şəhər və rayon partiya komitələri bu alayların təşkilat qərargahına çevrildi. Bir sıra şəhər və rayonlarda xalq alayları batalyonlarının tərkibində bölüklər təşkil edildi. Respublika üzrə bütövlükdə sıralarında 12 minə yaxın adam olan 700-ə qədər xalq alayı fəaliyyət göstərirdi. Düşmən paraşütçüləri, casusları və xəfiyyələri ilə vuruşmaq üçün 2100 nəfərlik qırıcı taqımlar yaradılmışdı. Xalqın sevgisi ilə "Dağ qartalları" adlandırılan bu əsərlər qarşısında çıxış edərkən Əziz Əliyev qeyd etmişdi ki, hər cür gözlənilməz hadisələrə və hər cür şəraitdə düşmənin burnunu ovmağa həmişə hazır olmaq lazımdır.

Dağıstanda hərbi hava hücumundan və hərbi hava kimyəvi hücumundan müdafiə təşkilatlarının yaradılması, ümumxalq hərbi təlimi, respublika ərazisində müdafiə istehkamlarının düzəldilməsi və bu kimi bir çox başqa məsələlər Əziz Məmmədkərim oğlu Əliyevin ciddi maraq göstərdiyi məsələlərdən idi. Bütün idarələrdə, müəssisələrdə, kolxozlarda, əhalinin yaşayış yerlərində hava və kimyəvi hücumdan müdafiə hazırlığı aparılır, özünüqoruma qrupları təşkil edilirdi. OSOAVİAXİM təşkilatı 30 hərbi ixtisas üzrə kadrlar hazırlayırdı ki, müharibə illərində bu müəssisə respublikada 7 minə yaxın pulemyotçu, 3200 minamyotçu, 20 mindən çox avtomatçı, 1580 radist, 550 snayperçi, 2 min süvari hazırlamışdı.

Döyüşçülərin şücaəti nəticəsində 30 mindən çox vətəndaş şöhrət ordeni və medallara layiq görülmüşdü ki, bunlardan 7 nəfəri şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif edilmiş, 49 nəfəri isə Sovet İttifaqı Qəhrəmanı adı almışdı. Sovet İttifaqı Qəhrəmanları arasında Dağıstanın Q.Əliyev, Y.Akayev, L.Qalçenko, V.Əmirov kimi yetirmələri də var idi.

Əziz Əliyevin qarşısında duran ən ağır problemlərdən biri arxaya köçürülən əhalini, sənaye və tədris müəssisələrini yerləşdirmək idi. Zaqafqaziya və Orta Asiya respublikalarına köçürülən əhali axını Mahaçqaladan keçirdi. Ayrı-ayrı vaxtlarda Dağıstan paytaxtına 200 min adam köçürülmüşdü. Bu isə yerli şəhər əhalisinin sayını xeyli artırmışdı. Təzə köçüb gələnlərin işlə, mənzillə, ərzaqla və tibbi xidmətlə təmin olunması Əziz Məmmədkərim oğlu daim öz şəxsi nəzarəti altında saxlayırdı. 1942-ci ildə Dağıstanda keçən qurağın nəticəsində dənli bitkilər və məyvətərəvəz məhsullarının qıtlığına, dağlıların çox şeyə möhtac qalmasına baxmayaraq, ərzaq məhsulları ilə ilk növbədə evakuasiya olunan əhali təmin edilirdi. 5 mindən çox əsgər ailəsi işə götürülmüş, 2 min qədəri fərdi həyətyanı torpaq sahəsi almış, 30 min nəfərə isə maddi yardım göstərilmişdi. 1944-cü ildə təkcə əsgər ailələrinə göstərdiyi böyük köməyə görə Dağıstana SSRİ Silahlı Qüvvələrinin Ali Baş komandanı İ.Stalindən 25 təşəkkürnamə gəlmişdi.

... Təəssüf ki, Moskvanın müdafiəsi çətinliyindən heç də geri qalmayan Dağıstanın müdafiəsinin qəhrəmanlığını sovetin hərb tarixində nəinki Lukər kimi marşallar, heç generallar da dilinə gətirmədi. Əziz Əliyev kimi fədainin qəzəbi milyonlara sevgisi, o dövrün hakimiyyətin isə xəyanəti oldu. Doğrudur, o, sonralar qondarma xidmətlərə, bəhtanlara qarşı həqiqi olaraq hərəsi idi, lakin kimin nədən olduğunu zaman da sübut etdi, təbiət, millətin də gördü. Həmin o xəyanətkar hakimiyyət həyatın dibinə yuvarlansa da, Əziz Əliyev kimi görkəmli şəxsiyyəti yaratdı. Çünki məhz o, mümkün olmayan işləri həyata keçirmişdi. Gələcək tarix necə də adəmdi ki...

Reyhan Mirzəzadə,
Publisist-publisistika